http://az.trend.az/business/economy/1721814.html

*BİZNES VƏ İQTİSADİYYAT XƏBƏRLƏRİ*

# Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin "İqtisadi islahatlar üzrə" Elmi-Tədqiqat İnstitutu və AMEA-nın İqtisadiyyat İnstitutu elmi-tədqiqat sahəsində əməkdaşlıq etmək haqqında razılığa gəliblər

16 İYUL 2010, 14:14

Azərbaycan, Bakı, 16 iyul /Trend, müxbir İ.Xəlilova/
Məqalə müəllifi ilə əlaqə ünvanı: news@trend.az

Cümə günü Bakıda Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin "İqtisadi islahatlar üzrə" Elmi-Tədqiqat İnstitutu və AMEA-nın İqtisadiyyat İnstitutu arasında elmi-tədqiqat sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləni institutların direktorları Vilayət Vəliyev və İsa Əliyev imzalayıblar.




Müqavilə iqtisadi sahədə elmi layihələr və tədqiqatların birgə həyata keçirilməsi, elmi kadrların hazırlanması, həmçinin, elmi-praktik simpoziumlar, konfranslar və seminarların keçirilməsini nəzərdə tutur.




Sənədin imzalanması "Azərbaycan Respublikası: iqtisadi inkişaf, sosial və mədəni nailiyyətlər"in təqdimatı çərçivəsində təşkil olunub. Təqdimatda iqtisadi və sosial sahədə ölkənin əldə etdiyi nailiyyətlər, dövlət proqramları icrasının uğurlu nəticələri, ölkənin sosial-iqtisadi potensialı müzakirə olunub.

Tədbirdə ölkədə fəaliyyət göstərən beynəlxalq maliyyə institutlarının nümayəndələri iştirak ediblər.